# Azərbaycan Müdafiə Nazirliyi düşmənin döyüş texnikasının məhv edilməsinə dair növbəti videogörüntü yayıb



Azərbaycan Respublikası Müdafiə Nazirliyi Ermənistan ordusunun daha bir neçə döyüş texnikasının məhv edilməsinə dair növbəti videogörüntü yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin Mətbuat xidmətinə istinadla həmin videogörüntüləri təqdim edir. Xatırladaq ki, sentyabrın 27-dən oktyabrın 7-də saat 05.30-dək düşmənin 250-dək tank və digər zirehli texnikası, 270-dək artilleriya, yaylım atəşli raket sistemləri, minaatanı, 60-dək hava hücumundan müdafiə vasitəsi, 11 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi, 8 silah-sursat anbarı, 150-dək avtomobil texnikası və 1 ədəd "S-300" zenit-raket kompleksi Azərbaycan Ordusu tərəfindən məhv edilərək sıradan çıxarılıb.

Azərbaycan.- 2020.-8 oktyabr.- S.10.